# Tacikistanda ulu öndərə həsr edilmiş fotosərgi



**Ölkəmizin Tacikistandakı səfirliyi Düşənbədəki Milli Muzeydə Azərbaycanın Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş “Heydər Əliyev – Müstəqil Azərbaycanın memarı” adlı fotosərgi təşkil edib.**

Tədbirdə Tacikistan Xarici İşlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin nümayəndələri, Tacikistanda akkreditə olunmuş xarici diplomatik korpusun rəhbərləri və üzvləri, jurnalistlər və yerli diaspor fəalları iştirak ediblər.

Sərgidə ulu öndər Heydər Əliyevin həyatının müxtəlif mərhələləri, sovet dövründə və müstəqillik zamanı Azərbaycana rəhbərlik etdiyi illərdə gördüyü işlər, keçirdiyi görüşlər, ölkəmizin regionlarına və xaricə səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunub.

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov Heydər Əliyevin dövlət və xalq qarşısındakı misilsiz xidmətləri, Azərbaycanın taleyüklü məqamlarında göstərdiyi siyasi müdriklik, müasir müstəqil Azərbaycanın quruculuğu yolunda həyata keçirdiyi böyük işlər barədə məlumat verib.

Tədbirin sonunda səfirliyimiz tərəfindən Tacikistan Milli Muzeyinə Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı Qələbəsindən bəhs edən “Zəfər Salnaməsi” kitabı hədiyyə olunub.

**Qulu KƏNGƏRLİ**

**Düşənbə**

Xalq qəzeti .- 2023.- 3 iyun.- S.5.